# Kamal Abdullanın "Casus" komediyası Lənkəran səhnəsində

**Özünün 132-ci mövsümünə başlayan Lənkəran Dövlət Dram Teatrının klassik və müasir Azərbaycan dramaturgiyasından nümunələrlə yanaşı, Qərb dramaturgiyasına da cəsarətli müraciəti kollektivin yorulmadan axtarışlarda olmasını göstərir.**



Bu günlərdə teatrda Xalq yazıçısı Kamal Abdullanın "Casus" komediyasının premyerası keçirilmişdir. Tamaşanın quruluşçu rejissoru Anar Babalının 36 yaşı var. O, Lənkəran teatrına qədər İrəvan Dövlət Azərbaycan Dram Teatrında, Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında və Azərbaycan Dövlət Akademik Musiqili Teatrında rejissor kimi çalışıb. Cari ilin yanvar ayından isə Lənkəran Dövlət Dram Teatrının baş rejissoru vəzifəsinə təyin olunub.

Anar Babalının rəhbərliyi ilə qısa müddətdə kollektivdə sağlam yaradıcılıq mühiti formalaşmış, kollektivin hər bir üzvü teatrın inkişafına xidmət etməyə səfərbər olunmuşdur. "Casus" komediyası isə gənc rejissorun Lənkəran teatrında quruluş verdiyi sayca üçüncü səhnə əsəridir.

Onu da bildirək ki, Xalq yazıçısı Kamal Abdullanın istər bədii, istərsə də elmi yaradıcılığında Azərbaycan xalqının dünyaya bəxş etdiyi ən nadir incilərdən sayılan "Kitabi-Dədə Qorqud" eposunun müstəsna yer tutduğu çoxlarına məlumdur.

"Casus" tamaşasının da süjet xətti məhz "Kitabi-Dədə Qorqud" eposundan qaynaqlanmışdır. Lakin müəllif burada konkret olaraq "Kitabi-Dədə Qorqud"un heç bir boyundan istifadə etməyərək, hadisələri yalnız öz bədii təxəyyülünün süzgəcindən keçirmişdir.

Səhnə əsəri komediya janrında qurulsa da, bu komikliyin dərin qatlarında ürək sızladan faciə gizlənmişdir.

Tamaşada Dədə Qorqud obrazı hadisələrin axarını istiqamətləndirir. O, Oğuz tayfaları arasında casusluq edənin kim olduğunu Qazan xana bildirir. Digər tərəfdən isə məsələyə insani mövqedən yanaşır, Boğazca Fatmanı onun casus oğlunun başına gələcək fəlakətdən xəbərdar edir, ona ölümdən xilas yolunu göstərir. Beləliklə, Oğuz elinin bilicisi olan Dədə Qorqud xəyanət edən bir casusu hifz etməklə, böyük bir fəlakətin qarşısını almağa nail olur.

Səhnə əsərində Xalq artisti Qabil Quliyev (Dədə Qorqud), Əməkdar artist Sucəddin Mirzəyev (Qazan xan), aktyorlardan Əlibala Əsgərov (Bayandur xan), Qızılgül Quliyeva (Boğazca Fatma), Aynur Əhmədova (Burla Xatun), Miraslan Ağayev (Şirşəmsəddin), Allahverən Babayev (Bəkil), Əbülfəz Axundov (Aruz Qoca), Səyyad Əliyev və Emil Rzayev (Beyrək) iştirak edirlər.

Qeyd edək ki, tamaşanın premyerasını əsərin müəllifi, Xalq yazıçısı Kamal Abdulla və Bakıdan gəlmiş sənət xadimləri, qələm sahibləri də izləyiblər.

Yaxın günlərdə "Casus" komedıyasının paytaxt tamaşaçıları qarşısında da oynanılması nəzərdə tutulmuşdur.

***Ağaddin BABAYEV,***
***Lənkəran***

Azərbaycan.- 2022.- 13 noyabr.- S.9.